# Qəbələdə sosial-iqtisadi inkişafın uğurları

## 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat MƏRUZƏSİ

(Əvvəli 5-ci səhifədə).

təxanasında 2018-ci ilin altı ayı ərzində stasionar xəstələrin sayı 1224 nəfər, cərrahi əməliyyatların sayı 127 olmuşdur.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplar qrafik üzrə birinci yarımillikdə 3250 nəfər planlaşdırılmış, onlardan 2018-ci ilin birinci yarımil ərzində 945 nəfər obliqat qrup əhali müayinəyə cəlb edilmişdir. Bunlardan 235 nəfəri təhsil, 463 nəfəri səhiyyə, 247 nəfəri isə digər sahələrdə işləyənlərdir.

Ölkə Prezidentinin tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin 15 fevral tarixdən 15 may tarixədək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilmişdir. Tərtib edilmiş qrafikə əsasən rayon mərkəzi xəstəxanasında və Qəbələ Müalicə Diaqnostika Mərkəzində əhali müayinələrə cəlb edilmişdir. Eyni zamanda bütün qəsəbə və kəndlərdə həkim briqadaları tərəfindən ilkin müayinələr aparılmış, 18 yaşından yuxarı ümumilikdə 66118 nəfər rayon sakini müayinə edilmişdir. Müayinələrin nəticəsinə əsasən 3603 nəfərə ambulator müalicə təyin edilmiş, 295 nəfər stasionar müalicəsinə, 184 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Bu müddət ərzində Qəbələ Müalicə Diaqnostika Mərkəzində konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 14238, endoskopiya kabinetində müayinələrin sayı 1014, EKQ müayinələrinin sayı 2190, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 249 nəfər, stasionar şöbəyə daxil olan xəstələrin sayı 588 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 551 olmuşdur.

Bununla yanaşı ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən "Talassemiyasız həyat naminə" proqramı layihəsi çərçivəsində rayonumuzda keçirilmiş qanvermə aksiyasında 200 nəfərdən çox könüllü qan vermişdir.

Gigiyena və Epidemilogiya Mərkəzi tərəfindən 2018-ci ilin müvafiq dövründə bakterioloji laboratoriyada yoluxucu xəstəliklərin aşkar edilməsi məqsədilə 770 müayinə aparılmışdır.

Cari ilin altı ayı ərzində mərkəzin işçiləri ümumtəhsil məktəblərində 95, uşaq bağçalarında 31 sanitariya müayinəsi aparmışlar.

Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2018-ci ilin birinci yarımili ərzində 42 tədbir həyata keçirilmişdir. Bunlardan 25 tədbir gənclərlə iş sahəsini, 17 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

2018-ci ilin ötən dövrü ərzində Qəbələ Olimpiya İdman Kompleksinin xidmətlərindən 1078 nəfər-gün istifadə olunmuşdur ki, bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 376 nəfər təşkil etmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayından 116 nəfəri ödənişli əsasla, 260 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

Qəbələ Dövlət Peşə Tədris Mərkəzində fəaliyyət göstərən I peşə təhsili korpusunda tədris planına uyğun olaraq fevral ayında 11 buraxılış qrupunda nəzəri fənlərdən daxili imtahanlar keçirilmiş və məktəbin 206 nəfər şagirdi bu imtahanlardan müvəffəq qiymətlər almışlar. Hazırda isə modul tipli təhsil proqramları ilə təhsil alan şagirdlər modullar üzrə rayonumuzun iri aqrar təsərrüfatlarında istehsalat təcrübəsi keçirlər.

Mərkəzdə pilot layihə olaraq 3 yeni ixtisas–aqroservis mütəxəssisi, bitkiçilik mütəxəssisi və heyvandarlıq mütəxəssisi ixtisasları üzrə təhsil müddəti 2 il olan qruplara şagird qəbulu aparılmışdır. Həmin ixtisaslar üzrə tədris prosesi modul təhsil proqramları üzrə keçirilir. Hazırda həmin qruplarda Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimləri tədris aparırlar.

Tədris Mərkəzinin II turizm korpusunda təhsil alan 172 şagirdə 11-17 fevral tarixlərində buraxılış qruplarında İKT, ingilis dili və müvafiq olaraq ixtisas fənlərindən imtahan keçirilmişdir.

Son zamanlar təhsil sahəsində baş vermiş yeniliklər bir daha göstərir ki, peşə təhsili sisteminə diqqət getdikcə artmaqdadır və əmək bazarı, iqtisadiyyatın və müasir qloballaşma prosesinin tələbləri bu sahəni inkişaf etdirməyə zərurət yaradır. Hazırda peşə-ixtisas təhsili və təlimi ciddi islahat mərhələsindədir.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən 2018-ci ilin altı ayı ərzində 126 nəfər müraciətçilərə müxtəlif növ xidmətlər göstərilmişdir. Ümumilikdə müxtəlif xidmət, tədbir, təlim və dərnəklərdən 1229 nəfər bəhrələnmişdir.

Ötən müddət ərzində mərkəz tərəfindən 45 ailəyə səfər edilmiş, 12 ailənin problemi həll edilmiş, 13 maarifləndirici tədbir və 2 təlim keçirilmişdir.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin əhatə dairəsində olan 12 rayonda fəaliyyət göstərən koordinasiya mərkəzləri ilə mütəmadi əlaqələr yaradılmış və rayon koordinatorları ümumi işə səfərbər olunmuşdur. Mərkəzlə 2018-ci ilin altı ayı ərzində 41 milli QHT əməkdaşlıq edərək vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirilmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Ölkə prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdiyi kimi son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində bütövlükdə ölkə üzrə bu sahədə xeyli irəliləyiş nəzərə çarpır. Qeyd etmək lazımdır ki, cari ilin altı ayında aqrar sahədə artım 4,2 faiz olmuşdur. Bu artım tendensiyası rayonumuzun aqrar sahəsində də müşahidə olunur. Bu sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi vəsaiti hesabına yardımların verilməsini nəzərdə tutulan Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Cənab prezidentin həmin sərəncamı kənd təsərrüfatı məhsulları istehsalçılarında böyük rüh yüksəkliyi yaratmışdır.

Həmin sərəncamın rayonda icrası ilə əlaqədar olaraq cari ilin may ayından etibarən kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına yardımların hesablanmasına başlanılmışdır.

Taxılçılıq rayonun aqrar iqtisadiyyatının əsasını təşkil edir. 2018-ci ilin məhsulu üçün 2017-cı ilin payızında 20100 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir ki, onun da 14600 hektarını buğda, 5500 hektarını isə arpa sahələridir. Hazırda sahələrdən taxıl biçini davam edir. Biçilmiş sahələrin məhsuldarlığı təqribən 32 sentnerdir.

Torpaq sahibləri tərəfindən 2018-ci ildə 632 hektar kartof, 559 hektar tərəvəz əkilmişdir. Həmin sahələrdən 79 ton kartof, 215 ton tərəvəz istehsal edilmişdir. Məhsul toplanışı davam etdirilir. Qeyd etmək lazımdır ki, son illər rayonun kənd təsərrüfatı bitkilərinin əkin quruluşunda xeyli dəyişiklik aparılıb. Belə ki, heyvandarlığın yemə olan tələbatının ödənməsi üçün taxıl sahələri 1500 hektara qədər azaldılmış və həmin sahələrdə yem bitkiləri əkilmişdir. Əsasən yonca, venəmir yem noxudu və yem çuğunduru əkinlərinə diqqət artırılmışdır.

Rayonumuzda meyvəçilik və üzümçülük də önəmli sahələrdən hesab edilir. Hazırda rayonda 6854 hektar bağ sahələri, 509 hektar üzüm plantasiyaları mövcuddur. Həm əhalinin həmin məhsullara olan tələbatının, həm də rayonun emal müəssisələrinin xammala olan tələbatının ödənilməsi baxımından meyvə və üzüm sahələrinin genişləndirilməsinə və məhsuldarlığın yüksəldilməsinə diqqət artırılmışdır.

Cənab İlham Əliyevin qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacib olduğuna görə ixrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Bununla bağlı rayonumuzda əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. 2016-2017-ci illərdə 1218 hektar, 2018-ci ilin yazında isə 120 hektar olmaqla cəmi 1338 hektar yeni fındıq bağları salınmış, bu ilin payızında əlavə olaraq 700 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur.

Eləcə də 2018-ci ilin birinci yarısında dövlət meşə fondu torpaqlarının 32,3 ha ərazisində aqromeşə massivləri, meyvə bağları salınmışdır ki, bunun da 15,5 hektarını fındıq, 7,3 hektarını şabalıd, 8,7 hektarını qoz və 0,8 hektarını alma bağları təşkil edir.

Qəbələ rayonunda uzun fasilədən sonra barama və tütün istehsalına başlanılmışdır. Cari ildə 101 nəfər kümçü tərəfindən 9110 kq barama istehsal edilmişdir. Barama istehsalının artırılması məqsədi ilə 2016-cı ilin payızından etibarən tut tinglərinin əkilməsinə başlanılmışdır ki, bu da gələcəkdə bizə barama istehsalının artırılmasına şərait yaradacaqdır.

Cari ildə 75 ha sahədə tütün əkilmişdir. Yüksək keyfiyyətli tütün yetişdirilməsinə nail olmaq üçün tütün sahələrində bütün aqrotexniki tədbirlər vaxtlı- vaxtında aparılır. Hal hazırda tütün sahələrində becərmə və tütün qırımı işləri aparılır.

Ötən müddət ərzində güzəştli qaydalarla 686 nəfərə 1412 ton gübrə və 3292 litr pestisid verilmişdir.

Məlum olduğu kimi yüksək məhsuldarlığın əldə olunmasında kondisiyalı toxum mühüm rol oynayır. 2018-ci ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə laboratoriya analizinə gətirilmiş müxtəlif kənd təsərrüfatı bitkilərinin toxumları yoxlanılmış və onlara müvafiq rəylər verilmişdir. Rayonda fəaliyyət göstərən 4 özəl toxumçuluq təsərrüfatlarının yetişdirdiyi 1081,1 hektar əkin sahəsində aprobasiya aparılmış 958,3 hektar sahə toxumçuluq üçün yararlı olması müəyyən edilmişdir. Toxumluq əkin sahələrində aprobasiya aparılaraq ortaq məhsuldarlıq müəyyən edilmişdir. Biçilmiş toxumluq sahələrin məhsuldarlığı 35-45 sentner olmuşdur. Qeyd etmək lazımdır ki, rayonda növbəti ilin taxıl əkini üçün kifayət qədər yüksək kondisiyalı toxum bazası mövcuddur.

Hazırda rayonda 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir və onlarda müəyyən qədər kənd təsərrüfatı texnikası mövcuddur. Bundan əlavə rayon üzrə 416 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayonda 81 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı və 399 ədəd təkərli traktor, 24 ədəd buldozer, 47 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı da daim təzələnir.

Birinci yarımildə rayon üzrə iri buynuzlu mal-qaranın sayı 42694 başa, o cümlədən inək və camışlar 21440 başa, qoyun-keçilər 191258 başa, donuzların sayı 1128 başa çatdırılmışdır.

Hesabat dövründə ət istehsalı (diri çəkidə) 2041 ton, süd istehsalı 20592 ton, yumurta istehsalı 11478 min ədəd, yun istehsalı isə 312,3 ton olmuşdur.

Rayonumuzda 2 müasir heyvandarlıq kompleksləri və 4 ədəd kiçik həcimli heyvandarlıq təsərrüfatı fəaliyyətə başladıqdan sonra rayon əhalisinin ətə və südə olan tələbatının ödənməsində müsbət dəyişikliklər baş vermişdir.

Rayonda mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 8 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Keçən 6 ay ərzində süni mayalama mütəxəssisləri tərəfindən 4332 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalanmış heyvanlardan 2029 baş yüksək genetik potensiala malik buzovlar alınmışdır. Bu keçən ilin müvafiq dövrü ilə müqayisədə 458 baş və 581 baş çoxdur. 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova subsidiya verilir. 2018-ci ilin 6 ayında 1209 baş süni mayalanmadan alınmış buzovlara subsidiya hesablanmışdır. Bu iş mütəmadi olaraq hər ay davam etdirilir. Ona görə də heyvan sahibləri heyvanların mayalandırılmasında süni mayalamaya üstünlük verirlər. Nəticədə mal-qaranın cins tərkibi tədricən yaxşılaşır.

Qızılbalıqyetişdirmə zavodunda cari ilin altı ayında 100

(Ardı 7-ci səhifədə).